**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
# QƏRARI

Bakı şəhəri № 227/3 31 yanvar 2012-ci il

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2011-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələri barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Republikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Auditorlar Palatası Şurasının 2000-ci il 1 aprel tarixli 52/3 saylı qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma qaydaları"na Auditorlar Palatası Şurasının 2010-cu il 20 aprel tarixli 208/5 saylı qərarı ilə edilmiş əlavə və dəyişiklikləri rəhbər tutaraq, Auditorlar Palatasının üzvü olan auditorların 2011-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrini müzakirə edərək Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2011-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrinə dair İxtisasartırma Komissiyasının protokolu nəzərə alınsın (1 və 2 saylı protokollar əlavə olunurlar).
2. "Auditorların ixtisasartırma qaydaları"nın 6.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri (Teymur Kamil oğlu Abasquliyev, Aynurə Tərlan qızı Tandoğan, Rauf Kamil oğlu Həsənov, Afiq Tofiq oğlu İsrəfilov) ixtisasartırma klursunda il ərzində iştirak etmədiklərinə görə onlara Palata tərəfindən xəbərdarlıq edilməli idi, lakin onların ixtisasartırma kurslarında iştirak etməmələri barədə Auditorlar Palatasına göndərdikləri məktublarda göstərdikləri üzürlü səbəblər nəzərə alınmaqla, növbəti illərdə təşkil ediləcək ixtisasartırma kurslarında iştirak etmələri onların nəzərlərinə çatdırılsın.
3. Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (lisenziyanı) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (lisenziyanı) almamış şəxslərin Palatanın növbəti illərdə də keçirdiyi ixtisasartırma kurslarında iştirakları təmin edilsin.
4. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarı auditorların nəzərinə çatdırılması üçün Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**